ATATÜRK KÜLTÜR, DİL VE TARİH YÜKSEK KURUMU
TÜRK TARİH KURUMU YAYINLARI
VIII. Dizi - Sayı: 35g

XVIII. TÜRK TARİH KONGRESİ

Ankara: 1-5 Eylül 2018

KONGREYE SUNULAN BİLDİRİLER

VII. CİLT

HATIRALAR, BİYOGRAFİLER, OTOBİYOGRAFİLER
TARİHÇİLİK

Hazırlayanlar
Semiha NURDAN – Muhammed ÖZLER

ANKARA, 2022

Hakani Şirvani Yaradıcılığında Tarihilik

Zeynalova Elnara*

Giriş

Ümumiyyətlə, müxtəlif xalqların ədəbiyyatı tarixin bütün dövrlərində bir-biri ilə əlaqədə inkişaf etmiş və öz milli xüsusiyyətlərindən başqa, digər mədəniyyətə aid elementləri də özündə əks etdirmişdir. Bəzən bu təsir özünü zəif şəkildə büruzə versə də, müəyyən dönəmlərdə çox güclü olmuşdur. Belə dönəmlərdən biri VII əsrdə yaranmış və getdikcə bütün Şərqi öz nüfuzu altına alan İslam dini ilə bağlı olmuşdur. Bu dinin yayılması ərəb mədəniyyətinin, eləcə də bütün Şərq mədəniyyətinin inkişafında yeni mərhələ açdı. İslamı qəbul edən xalqlar öz mədəniyyətləri ilə bura daxil olaraq, vahid mədəniyyətin - ümummüsəlman mədəniyyətinin zənginləşməsinə xidmət göstərməyə başladılar. Əvvəlcə onun aparıcı qüvvəsi ərəb mədəniyyəti olsa da, getdikcə fars mədəniyyəti sürətlə inkişaf etməyə başladı. Zaman keçdikcə, bura türk elementlərinin də daxil olması nəticəsində ümumşərq mədəniyyətinin formalaşması prosesinə təkan verildi. "*İşte "İslam medeniyeti", esaslarını tabii Arablardan almakla beraber, en ziyade yıktığı eski medeniyetlerin ve dinlerin kalan unsurları sayesinde gelişebilmiş türlü türlü harslara (kültürlere) malik muhtelif kavimleri kucaklayabilecek kuvvetli ve cihan-şümül bir medeniyeti ancak o sayede vücude getirebilmiştir. Yoksa yalnız çöl harsının unsurları kendi başına bu kadar böyük bir iş yapmağa kaadir olamazdı. "İslam ümmeti" dedigimiz kitle nasıl sırf Arablardan terkib edilmiş degilsə "İslam Medeniyeti" de yalnızca Arabların ve arablığın mahsulu degildir*".[1]

XII əsr Şərqdə Səlcuqilər dövlətinin gücləndiyi dövrə təsadüf edir. Artıq XI əsrdən etibarən, yəni Alp Arslanın (1063-1072) hakimiyyəti dövründə Səlcuqilər getdikcə daha böyük əraziləri fəth etdilər. Həmin dövr yalnız hakimiyyətin deyil, eləcə də mədəniyyətin çiçəklənmə dövrü kimi xarakterizə olunur. Əgər əvvəlki sultanlar mədəniyyəti ihmal edib, onun idarəsini öz əmirlərinə həvalə edirdilərsə, Alp Arslan və ondan sonra gələnlər elmi və ədəbiyyatı inkişaf etdirir, ədiblərə, şairlərə, alimlərə himayədarlıq edirdilər. Belə ki, onların sayəsində bu sülalə Şərqdə

* Azerbaycan Bilimler Akademisi, Edebiyat Enstitüsü, Bakü/AZERBAYCAN, zeynalova12@bk.ru

1 Köprülü, Fuad, *Türk edebiyatı tarihi*, Ötüken, İstanbul 1980, s. 86.

mədəniyyəti inkişaf etdirən türk sülaləsi kimi tarixə düşdü. Alp Arslan haqqında belə söylənilir ki, o, ziyalılarla, sənət adamları ilə çox oturub-durur və onların söhbətlərinə qulaq asırdı. Səlcuqilərin dövründə fars və ərəb ədibləri iki dilli idilər və XI-XII əsr ədəbiyyatına xas olan əsas cəhətlərdən biri ikidilli ədəbiyyatın yaranması idi. Təsadüfi deyildir ki, Nasir Xosrov, Baba Tahir, Ömər Xəyyam, Cuveyni, Baxərzi, Fərid əd-Din Əttar və Şərqin digər tanınmış qələm əhli məhz bu dövrdə yazıb-yaradıblar. Öz əsərləri ilə Şərq ədəbiyyatı tarixində yeni bir istiqamətin əsasını qoyan XII əsrin məşhur Azərbaycan şairi Xaqani Şirvani də bu prosesdən kənarda qalmamış və ümumşərq mədəniyyətinin inkişafına öz əsərləri ilə bir yenilik qatmışdır. Ona qədər mövcud olan Şərq mədəniyyətinə yaxından bələd olan şair sonrakı nəsillər üçün zəngin xəzinə yaratmışdır.

XII əsr Şərqin, eləcə də Azərbaycanın mədəni yüksəliş dövrü kimi xarakterizə olunur. Xaqaninin doğulub boya-başa çatdığı Şirvan Azərbaycanın elm və mədəniyyət mərkəzi kimi məşhur idi. Burada hakimiyyətdə olan Şirvanşahlar dövlətinin qonşu dövlətlərlə qurduğu əlaqələr nəticəsində ölkədə iqtisadiyyatla yanaşı, elm və mədəniyyət sahəsi də sürətlə inkişaf edirdi. Bu dövrdə elmə, təhsilə böyük önəm verilir, təbabət, fəlsəfə, astronomiya, həndəsə, fiqh kimi sahələr xüsusilə fərqlənirdi. Təsadüfi deyildir ki, həmin dövrün ədib və şairləri poeziyanın sirrləri ilə yanaşı, həmin elmləri də dərindən öyrənir və öz əsərlərini elmi məlumatlarla zənginləşdirirdilər. Bu xüsusiyyət dövrünün tanınmış ziyalılarından olan Xaqaninin hər iki dildə yazdığı əsərlərində özünü bariz şəkildə göstərir.

Məlum olduğu kimi, klassik şairlərin əsərlərinin dərindən araşdırılması nəinki bu sahədə çalışan tədqiqatçıların, eləcə də tarixçilərin maraq dairəsindədir. Belə ki, tarixçi-alimlər hər hansı bir dövrü öyrənərkən, mütləq həmin dövrün tanınmış şairlərinin əsərlərinə də istinad edirlər. Xaqaninin fars və ərəb dillərində olan yaradıcılığı özündə bəzi tarixi məlumatlar əks etdirir. Bu məqalədə şairin ərəbdilli yaradıcılığında rast gəlinən tarixi faktlara toxunmaq istərdik.

Xaqaninin ərəbdilli yaradıcılığı 6 qəsidədən (onlardan beşi dövrünün tanınmış simalarına (Cəlal əd-Din əl-Xariyə (əl-Xəvari və ya əl-Xuvari) - 171 beyt, Dərbənd hakimi Seyf əd-Din Muzəffər bin Muhammədə - 47 beyt, Məlik ul-əzəm Əla əd-Dinə-45 beyt; İmam Muhammməd bin Yəhya-16 beyt, Muhammməd Səmani -14 beyt), biri isə Şərqin məşhur elm və mədəniyyət mərkəzi olan qədim Bağdad şəhərinə (68 beyt) həsr olunub), iki müqəddimədən və qitələrdən ibarətdir.

Şairin ərəbdilli yaradıcılığında əsas yer tutan qəsidə *İmam Cəlal əd-Dinə* həsr olunmuş mədhiyyədir. Qəsidənin bütün beytləri əlif (və ya dayaqsız həmzə) ilə bitən

sözlərlə qafiyələndiyindən, əlifiyyə də adlandırılmışdır. Şair bu tarixi şəxsiyyətə həm fars, həm ərəb dilində əsər həsr etsə də, İmam Cəlal əd-Dinin kimliyi tam araşdırılmamışdır. Cəlal əd-Dinin nisbəsi dr. Mir Cəlal əd-Din Kəzzazinin tərtib etdiyi Xaqani "Divan"ında əl-Xəzəri - الخزاری, dr. Ziya əd-Din Səccadinin tərtib etdiyi "Divan"da isə الخواری-əl-Xari və ya əl-Xuvari kimi yazılıb. Prof. Qafar Kəndli-Herisçi Cəlal əd-Dinlə bağlı belə bir məlumat verir: "*Cəlaləddin Xari Sultan Toğrul və sultan Təküşlə çağdaş idi. Xaqani Cəlaləddinlə məktublaşırdı*"[2]. Başqa mənbələrdə Cəlal əd-Dinlə bağlı hər hansı bir məlumata rast gəlinmədiyinə və bu məlumatın mənbəyi göstərilmədiyinə görə, Cəlal əd-Dinin nisbəsi (الخواری- əl-Xavari və ya əl-Xuvari) ilə bağlı müəyyən araşdırmalar aparıldı. Sultan Toğrul bin Arslan Reyə gələrkən, onun ordusu atlarını əkin sahələrinə buraxır və Sədr əd-Din əl-Vəzzan bununla bağlı Sultanın yanına gedərkən məşhur vaiz, nəzm və nəsr ustası Cəlal əl-Xuvarini də özü ilə götürür. Şairin burada fars dilində bədahətən söylədiyi şeirdən çox xoşlanan Sultan atların əkin sahələrindən çıxarılmasını əmr edir[3]. Yaqut əl-Həməvi də Rey vilayətinin şəhərlərindən olan İsfahanın on səkkiz fərsəxliyində yerləşən Xuvar şəhəri haqqında məlumat verir [4]. Dr. Kəzzazinin təqdim etdiyi الخزاریəl-Xuzəri isə Məvarənnəhrdəki Xuzər nahiyəsinə görə verilən nisbədir [5]. Q. Kəndli-Herisçi Cəlal əd-Dinin Reyin Xar mahalından olduğunu və onun Xaqani ilə Xarda görüşdüyünü ehtimal edir [6]. Buradan belə nəticə əldə etmək olar ki, Xar-Xəvar-Xuvar eyni coğrafi ərazidir, sadəcə ərəb, fars dillərinin oxunuş qaydalarına görə müxtəlif cür oxuna bilər. Deməli, dr. Səccadinin təqdim etdiyi variant daha düzgündür.

Qəsidə ənənəvi ərəb qəsidələri kimi lirik girişlə başlamış və qəm-qüssə, göz yaşları ilə müşayiət edilərək, qəmgin notlar üzərində köklənmişdir:

بَكَتِ ٱلربابُ فَقُلْتُ ايُّ بُكاءِ أَبُكاءَ عَهْدٍ أَمْ بُكاءَ إِخَاءِ

فَٱلْعَهْدُ لِلرَّبْعِ المُحَوَّرِ بِدَمْعِنا ثم الإِخاءَ لِزُمْرَةِ الخلطاء [7]

Rabab (və yaxyd qadın) ağladı. Sordum: bu necə ağlamaqdır? Dövrana ağlayırsan, yoxsa qardaşlığa?

2 Qafar, Kəndli-Herisçi, *Xaqani Şirvani (həyatı, dövrü və mühiti*), Bakı 1988, s. 468.

3 Zəkəriyyə, bin Mahmud, əl-Qəzvini, *Əsərul-bilad va əxbərul-bilad,* Beyrut, s. 363.

4 Yaqut, əl-Həməvi, *Mu'cəmul-buldən,* Beyrut, s. 410.

5 İmam Əbu Sə'd, Abdu əl-Kərim, əs-Səm'ani, *Əl-Ənsəb*, Dərul-cinan, Beyrut 1988, s. 364.

6 Kəndli-Herisçi, s. 474.

7 Xaqani Şirvani, *Divan*, tərtib edəni: Mir Cəlal əd-Din Kəzzazi, Tehran, 1375, səh. 1340.

Vətəndə göz yaşlarımızla keçən zəmanəyə, sonra zina əhlinin qardaşlığına.

Burada رباب – sözünü 2 cür izah etmək olar:

1) Musiqi aləti kimi;

2) Qadın mənasında. "Lisən əl-arab"a görə:

"قال ابو عبيد: الربابة، بالفتح: السحابة التى قد ركب بعضها بعضا، وجمعها رَبابٌ، و بها سمّيت المرأة الرَّباب؛"[8]

"*Əbu Ubeydə demişdir: ər-rababə, (fəthə ilə) bir-birinin üzərinə toplaşan buluddur, onların cəmi ər-rabab-dır, qadın da bu sözlə ər-rabab adlandırılıb*". Deməli, ər-rabab qadınlara verilmiş ümumi bir ad kimi klassik ərəb poeziyasında işlədilmişdir.

Rabab musuqi aləti kimi, mənbələrin verdiyi məlumata görə, ilk dəfə Bəni Tayy qəbiləsindən olan qadının əlində rast gəlinib. Cahiliyyə şairləri qəsidələri, xüsusilə də mərsiyələri onunla müşayiət edirdilər.[9]

Hər iki məna qəsidənin kədərli girişinə və poeziyanın tələbinə uyğun gəldiyinə görə rabab sözünü – həm qadın, həm də musiqi aləti kimi tərcümə etmək olar.

Qəsidədə ərəb aləmində məşhur olan tarixi şəxsiyyətlərin adı çəkilmişdir. Belə tarixi şəxsiyyətlərdən biri Quss bin Saidə əl-İyədidir. O, İslamdan əvvəl yaşamış bir müdrikdir və Əl-İyədi burada onun mənsub olduğu tayfanı bildirir. İbn Kəsirin verdiyi məlumata görə, Peyğəmbər (s. ə.s.) İyədi qəbiləsinin nümayəndələrinə müraciət edir ki, mən Quss bin Saidəni Ukaz bazarında qırmızı dəvənin üzərində camaata çox gözəl nitq söyləyərkən gördüm, amma onun nitqini yadda saxlaya bilmədim, indi o, nə edir? Peygəmbərə (s. ə.ə.) onun həlak olduğunu xəbər verirlər və Quss bin Saidənin xütbələrindən, şeirlərindən misallar da gətirirlər.[10]

Qəsidədə adı çəkilən digər tarixi şəxsiyyət ərəb ədəbiyyatının ənənələrə qayıdış dövrü ədəbiyyatının görkəmli nümayəndəsi olan Əbu İbadə əl-Valid əl-Buhturidir. Şair Buhturinin adını belə xatırlayır:

ضمّنت نصف البيت للطاء فها توهّمت باسم البحتري الطاء[11].

Ət-Tainin beytinin yarisini daxil etdim, bununla da Buhturi ət-Tainin adına işarə etdim.

8 İbn Mənzur, *Lisən əl-arab,* Beyrut, əl-mucəlləd əl-xəmis, s. 71.

9 http://al-hakawati.la.utexas. edu

10 İbn Kəsir, əd-Dimaşqi, *Əl-Bidəyə va ən-nihəyə*, əl-cuz'us-səni, Beyrut 1990, s. 230.

11 Xaqani, *Diwan*, t. Kəzzazi, s. 1347.

Məhz bu beyt Xaqaninin qəsidəni Buhturinin təsiri altında yazdığını iddia etməyə əsas verir. Belə ki, Buhturinin Babək hərəkatına qarşı döyüşlərdə yaxından iştirak etmiş Əbu Səid Muhammməd bin Yusuf əs-Səğri ət-Taini mədh etdiyi

زعم الغراب مُنبِّئُ الانباء أنَّ الأحِبَّة آذنوا بتناء[12]

beyti ilə başlayan qəsidəsi Xaqaninin bu qəsidəsi ilə eyni qafiyə sisteminə malikdir, yəni hər iki qəsidənin bütün beytləri dayaqsız həmzə ilə bitir.

Bundan başqa şair Buhturi qəsidəsinin birinci beytindəki الغراب مُنبِّئُ الانباءifadəsindən istifadə etdiyini yuxarıdakı beytdə dilə gətirmişdir. Buhturinin adı çəkilən qəsidəsi 56 beytdən, Xaqaninin qəsidəsi isə 171 beytdən ibarətdir. Məhz buna görə şair mətləbi uzatdığını və buna görə də xəcalət çəkdiyini belə dilə gətirir:

أطنبت نصف كدت أغرق خجلة لي بقصته الحموم في الرمضاء[13]

Mətləbi çox uzatdım, ona görə də az qaldı xəcalət tərində qərq olam, mən onun hekayəsindəki kimi şiddətli qızdırmanın tərinə batıram.

Xarəzmşahlar dövlətinin hökmdarı Mələk ul-əzəm Əla əd-Din Atsıza həsr olunan qəsidə 45 beytdən ibarətdir. Bu qəsidəyə ərəbcə yazılmış müqəddimə onun əhəmiyyətini daha da artırır. O, Xaqaninin fəlsəfi fikirlərinin öyrənilməsi sahəsində xüsusilə qiymətlidir. Maraqlı məzmunu ilə diqqəti cəlb edən qəsidə yüksəkliyin təsviri ilə başlayır. 1-10 cu beytləri əhatə edən hissədə göstərilir ki, bu yüksəkliyin zirvəsində İsa (s. ə.s.) üçün pənahgah var, İdris (s. ə.s.) üçün genişlik; ulduzlar onun yolunda oruc tutur, səma səcdəyə gedir. 11-15-ci beytlərdə şair, öz məmduhunu bu yüksəkliyin üzərində təsvir edir. 16-26-cı beytlər qəsidənin ən maraqlı hissəsidir. Burada hökmdar-şair arasındakı real münasibətlər ön plana çəkilmişdir. Belə nəticəyə gəlirik ki, Əla əd-Din Xaqaniyə qarşı həmişə diqqətcil davranmamış və şair incə bir eyhamla onun səxavətinə ehtiyacı olduğunu belə göstərmişdir:

أنا النبت أنمانى بغيث سخائه فنبت الكرى ينمو إذا الغيث يهمع

أنا الماء اعلانى بشمس نواله فماء الربّى يعلو إذا الشمس تطلع [14]

Mən onun səxavət yağışı ilə əkib becərdiyi bitkiyəm, əkilən bitki yağış yağarsa, əmələ gəlib inkişaf edər.

Mən onun uğurlarının günəşi ilə göylərə qalxan suyam, böyüdən su günəş çıxarsa təsir edər.

12 Buhturi, *Diwan,* s. 1.

13 Xaqani Şirvani, *Diwan,* tərtib edəni: Seyyid Ziya əd-Din Səccadi, Tehran, 1338, s. 948.

14 *Diwan,* t. Kəzzazi, s. 1362.

Daha sonra Əla əd-Dinin bəzən şeirə qarşı olan laqeyd münasibətini qeyd edən şair, bu münasibəti hamıya qarşı ədalətli və mərhəmətli olan Allahın öz bəndəsinə olan münasibəti ilə müqayisə edir:

هو البحر ذو الجزر والمدّ في الندى كذلك دأب الله يعطى ويمنع
مصالح نشو الطفل تعرف طيره لتفطمه رفقا به ثمّ تُرضِعُ [15]

Səxavətdə (əliaçıqlıqda) o, qabarma və çəkilmələri olan dənizdir, bu, həm verən, həm də alan Allaha xasdır".

Zəmanə bilir ki, uşağın inkişafında xeyirlisi, onu süddən ayırmaq üçün əvvəlcə süd verilməlidir.

Şair qəsidədə bu vəziyyətlə bağlı hikmətli fikirlər də söyləmiş, "hər şeyin çoxu ziyandır" fikrinə özünəməxsus şəkildə ştrixlər vurmuşdur:

نهاية فعل الخمر سُكر معاقر لما زاد فوق السكر فهو مضيِّع
دوام نعيم بالزوال مخبِّر وكثر دواء للطباع مفزع[16]

Şərabı çox içməyin sonu sərxoşluğa qurşanmaqdır, necə ki, sərxoşluq artdıqca, qənimin olur.

Həzzin (xoş günlərin) uzun sürməsi yoxluqdan xəbər verər, necə ki, dava-dərmanın çoxluğu insan təbiəti üçün təhlükəlidir.

Şair Əla əd-Dinin onun mədhiyyəsinə laqeyd qaldığını vurğulayaraq, göstərir ki, hökmdarın onun təmtəraqlı sözlərinə ehtiyacı yoxdur, çünki onun arxasında öz xalqı var və Əlaəddin hər iki İraqda tanınıb sevilir:

فلا غرو أن يزرى بما انا حلته لاجل علاء الدين قوم سميدع
نظام المعالى من خراسان سيد عريق وفي صقع العراقين مصقع [17]

"*Təəccüblü deyil ki, o, mənim bəzəkli sözlərimə laqeyd qaldı; çünki Əlaəddinin uğrunda qəhrəmanlıq göstərən xalq var.*

Xorasandan olan bu yüksək keyfiyyətlər sahibi nəcib bir ağadır və hər iki İraqın ərazisində məşhurdur".

Qəsidədə Əla əd-Dini "dövrünün Cahizi" adlandıran şair, onu iki tac sahibi Keyxosrov kimi qələmə verərək, həm türklərin, həm də İranın ona itaət etdiyini göstərir.

Şairin yaradıcılığında simvol kimi xatırlanan adlardan biri olan Cahiz klassik ərəb nəsrinin görkəmli nümayəndəsi Amr bin Bəhv bin Məhbubun (764-868) ləqəbi-

15 *Divan*, t. Kəzzazi, s. 1362.

16 *Divan*, t. Kəzzazi, s. 1362.

17 *Divan*, t. Kəzzazi, s. 1362.

dir. Mənbələrə görə, çox mütaliə edən, əlindən kitab düşməyən Cahiz dövrünün savadlı adamlarından olmuşdur. Əbu Həffan onunla bağlı yazır ki, mən kitabı, elmi Cahizdən artıq sevəni nə görmüşəm, nə də eşitmişəm. O, necə olursa-olsun, əlindəki kitabı oxumamış yerə qoymazdı, kitab dükanlarında gözətçi kimi gecələyir, əvəzində kitab oxuyurdu [18]. Haqqında müxtəlif maraqlı rəvayətlər olan Cahiz "Əl-bəyən va ət-təbyin", "Kitəb əl-buxələ" və s. kimi qiymətli əsərlərin müəllifidir. Şairin dünyagörüşündə, fəlsəfəsində baş verən dəyişikliyi, yəni əvvələr alüdə olduğu yunan fəlsəfəsinə sonralar şübhə ilə baxmasına bəlkə də Cahizin təsiri olmuşdur. Çünki Cahiz Aristotel fəlsəfəsi haqqında "Onun məntiqi heç bir ərəb oratoruna aydın deyil" demişdi.[19]

Cahizin yaradıcılığına yaxşı bələd olan Xaqani bu addan iki məqsədlə istifadə etmişdir:

1) özünün, yaxud məmduhunun dərin biliyini, elmini göstərmək üçün:

كأنّ علاء الدين جاحظ دهرنا هوى شيمتى دهر يريح ويوجع [20].

Sanki Əla əd-Din zəmanəmizin Cahizidir, həm rahatladan, həm əzab verən zəmanənin hər iki xüsusiyyətini sevir.

2) nəsr sahəsində olan qabiliyyəti vurğulamaq üçün. Çünki Cahizin nəsr əsərləri bu gün də klassik ərəb ədəbiyyatının fəxarət obyektidir. Şair özünün nəsrdə olan istedadını belə göstərir:

Əgər Müizzi və Cahiz mənim zamanımda olsaydılar, nəzm və nəsr sahəsində mənim xidmətçim olardılar.[21]

Qəsidədə şair Xaqanini filosof Xaqani əvəz etdikcə nücum, din, fəlsəfə, hikmətlə bağlı fikirlər də bir-birini ardıcıl şəkildə tamamlamışdır.

Yaşayıb-yaratdığı XII əsr mədəniyyətin çiçəklənmə dövrü olmaqla yanaşı, həm də siyasi hadisələrin, hakimiyyət çəkişmələrinin gücləndiyi dövr idi. Tarixdə iz buraxmış belə mühüm hadisələrdən biri də "Fitneyi-ğuzz" olmuşdur. İordaniya Universitetinin tədqiqatçısı Muhammməd Xalid əl-Mumini "فتنة الغز والسلطان سنجر

18 Yaqut, əl-Həməvi, *Mu'cəm əl-'Udəba,* əl-mucəlləd əs-sədis aşəra, səh. 75.

19 Крачковский, И .Ю. *Избранные сочинения,* том II, Москва-Ленинград: Издательство Академии Наук СССР, 1956, с. 363.

20 Xaqani, *Divan*, t. Kəzzazi, 1362.

21 Məmmədağa, Sultanov, *Xaqani Şirvani (həyatı və yaradıcılığı haqqında*), Bakı: Azərbaycan Dövlət Nəşriyyatı,1954, s. 59.

"السلجوقي" ("Ğuzz qiyamı və Sultan Səncər əs-Səlcuqi") adlı məqaləsində müxtəlif mənbələr əsasında ğuzzların soykökünü araşdırmağa çalışmışdır. Bəzi mənbələrə görə, əcəm, qarışıq köçəri millət, heç bir dinə etiqad etməyən natəmiz yarıvəhşi tayfa kimi xarakterizə olunan ğuzzlar digər mənbələrdə türkmən sözünün sinonimi hesab edilmiş və onların İslamı qəbul etmiş türk tayfaları kimi Türkiyədə, Türkmənistanda, Azərbaycanda, Qazaxıstanda, Qırğızıstanda, Özbəkistanda, qismən də Çində və Əfqanıstanda yaşadıqları göstərilmişdir. Ğuzzların bolsulu və yaşıl otlaqlı ərazilər tapmaq ümidi ilə Orta Asiyadan gəldiyini və hicrətin ikinci və dördüncü yüzilliklərində Ceyhun və Seyhun çayları arasında məskunlaşdığını da yazanlar var[22].

"Fitneyi-Guzz" və yaxud "Oğuz isyanı" kimi tarixdə iz buraxmış bu hadisəni törədən guzzların (oğuzların) kökü ilə bağlı fikirlər müxtəlif olsa da, onların Səlcuqilər dövlətinin tarixindəki rolu prof. dr. Mehmet Altay Köymen tərəfindən çox dəqiq təsbit edilmişdir: "*Büyük Selçuklu İmparatorluğu'nu kuranlar Oğuzlar olduğu gibi, yıkanlar da Oğuzlar'dır*".[23]

XII əsr tarixçisi və alimi Əbu əl-Fərəc ibn əl-Cauzi hicrətin 550-ci ilində baş verən ən mühüm hadisələrdən biri kimi ğuzzların hücumu və orada qətlə yetirilənlərlə bağlı yazırdı: "*Belə bir xəbər gəlib çatmışdır ki, türkmən ğuzzları Nişapura daxil olaraq oranı qarət etmiş və əhalini və fəqihləri, o cümlədən şafii şeyxi Muhammməd bin Yəhyanı qətlə yetirmişlər, onların qətlə yetiridklərinin sayı otuz minə yaxın idi*".[24] İmam Muhammməd bin Yəhya Nişapur Nizamiyyə mədrəsəsinin müdərrisi, dövrünün görkəmli alimi, bacarıqlı siyasətçisi, poeziya bilicisi olmuşdur. İbn əl-Əsirin verdiyi məlumata görə, "*zəmanəsinin əvəzolunmaz Şafii fəqihi olan Muhammməd bin Yəhyanın yanına uzaq Şərqdən və Qərbdən çoxlu adam gəlirdi və onun ölümünə bir çox alimlər yas tutdular*".[25]

İmam Muhammməd bin Yəhaya ilə şəxsən tanış olan şairin "شد"və "خاك" rədifli farsdilli şeirləri və ərəbcə bir qəsidə-mərsiyəsi məhz bu hadisənin təsiri altında yazılmışdır. Q. Kəndli-Herisçinin yazdığına görə, "*Xaqaninin "Fitneyi-ğuzz" və İmam Muhammməd Yəhyanın öldürülməsinə yazdığı mərsiyələr o vaxtkı müsəlman Şərqində yayılaraq dillər əzbəri idi. Bu əsərlər şairin şöhrətinin daha da çox yayılmasına səbəb oldu. 800 il ərzində*

22 Muhammməd, Xalid, əl-Mumini, "Fitnətul-Ğuzz vas-Sultan Səncər əs-Səlcuqi". Dirasət, əl-ulum əl-insəniyyə va əl-ictiməiyyə, əl-mucəlləd 42, əl-adəd 2, 2015, s. 392.

23 Köymen M. A. Selçuklu Devri Türk Tarihi. Ankara: Türk Tarih Kurumu Yayınları, 2017, s. 309.

24 Əl-Muntazam fi tərix əl-muluk va əl-uməm li-əbi əl-Fərəc əl-Cauzi. Dərul-kutub əl-ilmiyyə, Beyrut, 1992, əl-cuz əs-səminə aşəra, s. 101.

25 İbn əl-Əsir. Əl-Kəmil fi ət-tərix. s. 387.

"Fitneyi-ğuzz"dan danışan təzkirəçilər və tarixçilər Xaqaninin bu mövzuda yazdığı şe'rlərinə toxunmaqdadır".[26]

Xaqaninin ərəbcə yazdığı mərsiyəsi maraqlı müqəddimə ilə diqqəti cəlb edir. Bu müqəddimə Xorasan torpağının mədhi ilə başlayır. Şair bu torpağı qoruması, ona qarşı ədalətin bərpa olunması üçün Allaha dua edir və Muhammməd bin Yəhyanı xoş sözlərlə anaraq, onun ruhuna dualar oxuyur. Şair Xorasanı "*Dünyanın urvatı, əzəmətli İslam sultanından belə yüksək zirvə, elm adamlarının sığınacağı, dini qanunların anlamı, həqiqi vəsilələr məkanı, at belindəki igidlərin cıdır meydançası*" kimi qələmə vermişdir. Eyni zamanda, münəccimlərin verdiyi proqnozlarla bağlı bəzi məqamlara toxunanaraq, münəccimlərin ulduzlara görə verikləri xəbərləri yalnış hesab etmişdir.

Xaqani Səncərin həbs edilməsini və İmamın qətlə yetirilməsini belə göstərmişdir:

سافر حصيرا جسد سنجارا جاور مصيرا نول يحيى.[27]

"Səncərin bədəni həbs olunaraq getdi, Yəhyaya çatan mücahidlik oldu".

Yəhya rədifli mərsiyə İmam haqqında xoş sözlər və dualardan ibarətdir.

Xaqaninin həcmcə ən kiçik qəsidəsi *Muhammməd Səm'aniyə* həsr olunmuş mədhiyyədir. Bu mədhiyyə 14 beytdən ibarətdir. Çox güman ki, qəsidənin həsr olunduğu şəxs Xorasandan olan Muhammməd Səm'anidir. O, XII əsrin əvvəllərində yaşamış, hafiz, mühəddis, tarixçi olmuş və adların geneologiyasına aid səkkiz cildlik kitabı ona xüsusi şöhrət qazandırmışdır. Kitabda müəllif barəsində olan qeyddə onun tam adı belə təqdim olunur: İmam Əbu Sə'd Abdul-Kərim bin Muhammməd ibn Mənsur ət-Təmimi əs-Səm'ani. Qəsidənin elə ilk beytlərindən şairin öz məmduhuna verdiyi yüksək dəyər özünü göstərir:

أحنى لكنز الفضل أسّ معانى خضر العلوم محمد السمعانى
فلك الفضائل شمس اوجات العلى نخل الشهاب الفرد ذى اللمعان[28]

Fəzilət xəzinəsi olan elmlərin Xızrı Muhammməd Səmaniyə mənalar qaynağını baş əydirirəm,

Yüksək keyfiyyətlərin mərkəzi, ləyaqət zirvəsinin Günəşi, tayı-bərabəri olmayan parlaq ulduzların belə bəzəyi.

Göründüyü kimi, şair burada Muhammməd Səmanini elmlərin Xızrı kimi təqdim edir. Ümumiyyətlə, Xızır Qurani-Kərimin "Kəhf" surəsində adı aşkar çəkilməyən

26 Kəndli-Herisçi, s. 234.

27 Xaqani Şirvani. Divan. AMEA Əlyazmalar İnstitutunun əlyazması, M-413.

28 *Divan*, s. 1367.

alim kimi təqdim olunur: ـ فَوَجَدَا عَبْدًا مِنْ عِبَادِنَا آتَيْنَاهُ رَحْمَةً مِنْ عِنْدِنَا وَعَلَّمْنَاهُ مِنْ لَدُنَّا عِلْمًا (Musa və Yuşə orada) Öz dərgahımızdan mərhəmət (peyğəmbərlik və vəhy, yaxud ilham və kəramət) əta etdiyimiz və Öz tərəfimizdən elm (qeybə dair bə'zi biliklər) öyrətdiyimiz bəndələrimizdən birini (Xızırı) tapdılar. Şair də Səmaninin dərin və xeyirli biliklər sahibi olduğunu göstərmək üçün onu elmlərin Xızırı kimi qələmə vermişdir.

Şərq ədəbiyyatında qəsidə ilə yanaşı qitə janrı da geniş yayılmışdı. Qəsidə daha çox ünvanlı olub, mədh xarakter daşıyırdısa, qitələr müəlliflərin fəlsəfi, ictimai-siyasi görüşlərini əks etdirirdi.

Xaqaninin qitələri arasında «قطعة قالها في الشيب والهرم»("*Qocalıq və ağ saçlar haqqında qitə*") xüsusi maraq doğurur. Bu qitə məzmununa görə, الشيب (qocalıq haqqında) adlı şeir növünə bir nümunədir. Muhammad ət-Tunci bu şeir növünü şikayətin bir növü və yaxud onun bir hissəsi olduğunu deyərək, şairlərin bu şer növünə zaman-zaman müarciət etdiklərini və onun, əsasən, mədhiyyələrin, risələrin, həcvlərin girişində istifadə olunduğunu göstərmişdir. Tədqiqatçı Səlcuqilər və onlardan sonrakı dövr şairləri arasında qocalığa aid şeirlərin, əsasən, ölümdən, əcəldən xəbər verdiyini, bəzən də gözəllərlə bağlı xoş xatirələrin yada salınması məqsədilə yazıldığını da qeyd etmişdir.[29]

11 beytdən ibarət qitədə şair qocalığa özünəməxsus don geydirərək, orijinal fikirlər söyləmişdir. O, bir tərəfdən qocalığı nura bənzətsə də, onun əlamətlərini, yəni ağarmış saç-saqqalı pis görüntü hesab edərək, bu görüntünü dəf etməyi məqsədəuyğun hesab etmiş və öz fikirlərini maraqlı bir şəkildə əsaslandırmışdır.

Qitə saqqalını boyadığını şairə irad tutanların sözləri ilə başlayır:

قالوا خضبت فما هذا السواد له بريق خطّ كدور النون بالقلم

Dedilər: (saqqalını) rəngləmisən, amma onun üçün bu qaralıq nunun qələmlə çəkilmiş dövrəsi kimi parıltılı xətt deyil.

Qitənin növbəti beytləri şairin bu irada verdiyi cavabdan ibarətdir. Belə ki, Xaqani əvvəlcə ağarmış saqqalını boyadığını cəsarətlə etiraf edir və saqqal boyamağın pis iş olmadığını, bu adətin hətta islamdan qabaq da mövcud olduğunu və İslam aləmində də nüfuzlu, hörmətli şəxslərin saqqallarını boyadığını söyləyir. Qitə həm də bizə ərəblərin qədim adət-ənənələri haqqında məlumat verir. Məsələn, aşağıdakı beytlərdən belə məlum olur ki, ərəblər saqqallarını təbii üsullarla, yəni müəyyən bitkilərin köməyi ilə rəngləmişlər:

29 Muhammad ət-Tunci. Haulə əl-ədəb fi əl-asr əs-səlcuqi, 1974, s. 167.

نعم خضبت فخير الناس قد خضبوا إلى النبيّ أولى القربى ذوى النعم

حتى الامامان صهرا لقد كتما لون المشيب بماء الخطر و الكتم

Bəli, rəngləmişəm. Çünki alicənab insanlar da (saqqallarını) rəngləyiblər. Peyğəmbər (s. ə.s.) bu neməti öz yaxınlarına tövsiyə edib.

Hətta əhli-beytdən olan iki imamımız qocalığın rəngini xitr və kətəm suyu ilə gizlədiblər.

"Lisən əl-arab"da verilən məlumata görə, hələ qədimdən ərəblər arasında tüklərin qara rəngə boyanması üçün xitr bitkisindən, qırmızıya boyanması üçün isə kətəm bitkisindən istifadə olunub.[30]

Daha sonra şair qocalığı nurla, işıqla müqayisə edərək, nurun da Allah tərəfindən zülmətə boyandığını söyləyir:

الشيب نور بإذن الله اخضبه فالله يخضب قرن الشمس بالظلم

أ ما ترون كسوف الشمس يخضبها لسنّة الله يهدي لسنّة الأمم

Qocalıq nurdur və mən Allahın izniylə onu boyayıram. Belə ki, Allah da Günəşin buynuzunu zülmətə boyayır.

Ümmələrə doğru yol göstərən Allahın qaydalarına görə onu (günəşi) boyayan günəş tutulmasını görmürsünüz?

Bu qitədə Xaqani lakonik bir dildə qocalığın bütün əlamətlərini açıb göstərməyə nail olmuşdur. Yəni qitənin ilk beytlərində müəllif bir qədər təkəbbürlü təsir bağışlayır, sanki qocaldığını "etiraf etmək"də çətinlik çəkir. Alovlu göz yaşı axıdan şairin halı əbədi eşq odunda yananların halı ilə eynidir:

ماذا الخضاب ولكن مقلتي قطرت بعارضى فبدت سوداء كالحمم

اضحى دم الجفن فوق الخدّ منجمدا فاسودّ ما جفّ هذا حكم كلّ دم

كانّى مضرم نار الهوى أبدا فقد علانى دخان النار في الضرم

Boyama nədir ki?! Amma mənim bu dediklərimdən gözüm yaşardı və kömür kimi qara göründü.

Yanaqlarım üzərində kirpiklərin qanı donub qalır, quruyan qaralır, bu da qanın xüsusiyyətidir.

Sanki mən əbədi eşq odunda yananam, eşq odu isə məni alovlar içində göylərə qaldırır.

Qitənin sonuna yaxın şair daha nikbin əhval-ruhiyyədədir, o, bir tərəfdən qocalığın insanın xarici görünüşündə buraxdığı izləri gizlətməyi məqsədəuyğun hesab edərək, bunu Peyğəmbərin (s. ə.s.) vəsiyyəti ilə əsaslandırır:

30 İbn Mənzur. Lisən əl-arab. Beyrut, əl-mucəlləd əl-xəmis, s. 101.

أوصى النبيّ ذوى القربى ان اكتحلوا وغيروا شيبكم تنفوا أذى الهرم

Peyğəmbər öz yaxınlarına vəsiyyət edib: gözlərinizə sürmə çəkin, ağarmış saçlarınızı rəngləyin, qocalığın gətirdiyi pis görüntünü dəf edin.

Digər tərəfdən isə qocalıqla mübarizə aparmağın mənasız olduğunu, insanın qocalıq qarşısındakı acizliyini etiraf edir:

و في الغروب ترى الدنيا إذا هرمت صارت خضيب الدجى مسودّ باللحم

جرت عليّ وخطّ الشيب عاتبه و ما تلفت عتيبا من أذى الهرم

Qocaldınsa dünyanı gürub edən görürsən, zülmət ulduzu Xadıb qapqara görünür.

Qocalıq cizgisi onu təqib etdikcə üzərimə yürüyür, qocalıq əzabından qaçan Atibə rast gəlməzsən.

Beytdə istifadə olunan عتيب (Atib) kəlməsinin çox maraqlı məna ifadə edir. Belə ki, "Lisənul-arab" da bu söz belə açıqlanır: Atib: qəbilədir. Ərəblərdə belə bir məsəl var: Atib kimi öldü. Atib: Yəməndən olan qəbilənin əsasını qoyan, Atib bin Əsləmə bni Malik bin Şənuət bin Tədil, onlar Malik dininə məxsus olan qəbilədir. Bəzi məliklər onlara hücum edərək, kişiləri əsir alıb onları qula çeviriblər. Onlar deyirdilər: əgər bizim oğlan uşaqlarımız yetişkin olsaydılar, bizi xilas edənə qədər dayanmazdılar, onlar ölənə qədər bu, belə davam etdi və ərəblərdə məğlub olub ölənlə bağlı belə bir məsəl yarandı: Atib öldü;[31].

Deməli, şair qocalıqla mübarizənin bir arzu, xəyal olduğunu göstərərək, bunu imkansız hesab edir. Şairin fikrincə, əgər atiblilər xilas olmaq üçün xəyal qururdularsa, qocalıq qarşısında bu xəyal belə imkansızdır; Atiblilərin xilas olmaq üçün qurduqları xəyal nə qədər imkansızdırsa, qocalıq qarşısında bu xəyalı etmək belə yersizdir.

Yuxarıda deyilənləri belə ümumiləşdirmək olar ki, XII əsrdə yaşayıb-yaratmış Xaqani Şirvani yaşadığı dövrün tələbinə uyğun olaraq, iki dildə - ərəb və fars dillərində yazıb-yaratmışdır. Şairin hər iki dildə yazdığı əsərlər özündə tarixi məlumatlar ehtiva edir. Məqalədə şairin ərəbcə yazdığı əsərlərdə Səlcuqilər dövləti, ərəb intellektual aləminin nümayəndələri, ərəblərin adət-ənənələri ilə bağlı olan beytlər üzə çıxarılmış və tərcümə edilərək, faktlarla əsaslandırılmışdır.

31 İbn Mənzur. Lisən əl-arab. Beyrut, əl-mucəlləd ət-təsiu, s. 23.

Kaynaklar

Bin Mahmud əl-Qəzvini, Zəkəriyyə, *Əsərul-biləd va əxbərul-biləd*, Beyrut.

Buhturi, *Divan.*

Əl-Cauzi, *Əl-Muntazam fi tərix əl-muluk va əl-uməm,* əl-cuz əs-səminə aşəra, Beyrut: dərul-kutub əl-ilmiyyə, 1992.

Əl-Həməvi, Yaqut, *Mu›cəm əl-buldən,* Beyrut.

Əl-Mumini, Muhammməd, Xəlid, "Fitnətul-Ğuzz vas-Sultan Səncər əs-Səlcuqi", Dirasət, əl-Ulum əl-insəniyyə val-ictimaiyyə, əl-mucəlləd 42, əl-adəd 2, 2015, s. 391-404.

Əs-Səm›ani, İmam Əbu Sə›d Abdul-Kərim, *Əl-Ənsəb*, Beyrut: Dərul-cinan, 1988.

Ət-Tunci, Muhammməd, *Haulə əl-ədəb fi əl-asr əs-səlcuqi*, 1974.

Xaqani, *Divan*, tərtib edəni: Mir Cəlal əd-Din Kəzzazi, Tehran, 1375.

Xaqani, *Divan*, tərtib edəni: Ziya əd-Din Səccadi, Tehran, 1338.

Xaqani Şirvani, *Divan,* AMEA Əlyazmalar İnstitutunun əlyazması, M-413.

İbn Kəsir, əd-Dimaşqi, Əbul-Fidai, *Əl-Bidəyə va-ən-nihəyə*, əl-cuz›us-səni, Beyrut: 1990.

İbn Mənzur, *Lisən əl-arab*, əl-mucəlləd əl-xəmis; əl-mucəlləd ət-təsiu, Beyrut.

İbn əl-Əsir, *Əl-Kəmil fi ət-tərix*, əl-mucəlləd ət-təsiu, Beyrut: dəru əl-kutub əl-ilmiyyə, 1987.

Крачковский И. Ю. Избранные сочинения. Том II, Москва-Ленинград: Издательство Академии Наук СССР, 1956.

Köprülü Fuad, Mehmet, *Türk edebiyatı tarihi,* İstanbul: Ötüken, 1980.

Kəndli-Herisçi, Qafar, *Xaqani Şirvani (həyatı, dövrü və mühiti)*, Bakı: Elm, 1988.

Köymen, Mehmet Altay, *Selçuklu Devri Türk Tarihi*, Ankara: Türk Tarih Kurumu Yayınları, 2017.

Yaqut əl-Həməvi, *Mu'cəm əl-'Udəba,* əl-mucəlləd əs-sədis aşəra.

http://al-hakawati.la.utexas. edu